*Elvira LƏTİFOVA* *

# YAQUB MAHMUDOVUN "İTİRİLMİŞ TORPAQLAR" İSTİQAMƏTİ KONTEKSTİNDƏ İLİSU SULTANLIĞININ TARİXİNİN SƏHİFƏLƏRİNİN AÇILMASI TARİXİNDƏN

**Açar sözlər:** Yaqub Mahmudov, İtirilmiş torpaqlar, Şimal-Qərbi Azərbaycan, İlisu sutanlığı

**Key words:** Yagub Makhmudov, The Lost Territories, Northwest Azerbaijan, Ilisu Sultanate

**Ключевые слова:** Ягуб Махмудов, Потерянные территории, Северо-западный Азербайджан, Илисуйское султанство

Akademik Yaqub Mahmudovu tələbəlik illərimdən, daha dəqiq desəm, 1993-cü ildən tanıyıram. O zaman Yaqub müəllim təhsil aldığım BDU Tarix fakültəsinin dekanı idi. Doğrusu tələbəlik illərimdə onu yaxından tanımaq imkanım olmayıb, amma hamımız Yaqub müəllimin həm ağır təbiətli, həm də dərin biliklərə malik olan, vətənpərvər alim, eyni zamanda çox obyektiv, tələbələri qoruyan bir insan olduğunu bilirdik.

Mənim Yaqub müəllimlə həqiqi tanışlığım, təmasım 1996-cı ildən, aspiranturaya qəbul olduğum ildən başladı. Həmin illərdə, daha dəqiq desək 1995-ci ildən başlayaraq, görkəmli tədqiqatçı Yaqub Mahmudov Azərbaycanın şimal-qərb bölgəsinin tarixini saxtalaşdıranlara qarşı öz etiraz səsini qaldıraraq bu bölgənin həqiqi tarixinin ortaya qoyulması üçün bütün imkanları səfərbər etmişdi. 1995-ci ildən başlayaraq bölgənin tarixinin ayrı-ayrı məsələlərinə həsr olunmuş tədqiqat mövzularını öz aspirantlarına həvalə etməyə başlamışdı. Konkret olaraq, Z.Cavadovaya "Şimal-Qərbi Azərbaycan (tarixi-demoqrafik tədqiqat)", Ş.Əliyevə "İngiloylar (tarixi-etnoqrafik tədqiqat)", A.Məmmədovaya "Car-Balakən camaatlığı (tarixi-demoqrafik tədqiqat)", bu sətirlərin müəllifinə isə "İlisu sultanlığı (tarixi-etnoqrafik tədqiqat)" adlı dissertasiya mövzularını işləməyi tapşırmışdı.

Qeyd edim ki, başlanğıcda bizi böyük çətinliklər gözləyirdi. Haradan, necə başlamalı sualları hər birimizi ciddi şəkildə düşündürürdü. Demək olar ki, əlimizdə bölgənin həqiqi tarixi haqqında təsəvvürlərimizin formalaşmasına kömək edəcək heç nə yox idi. Yeganə istinad mənbəyimiz həmin bölgəni yaxşı tanıyan və həqiqi tarixini çox gözəl bilən Yaqub Mahmudovun məsləhətləri idi.

* **Elvira Lətifova** - Tarix üzrə fəlsəfə doktoru, dosent, Bakı Dövlət Universiteti Tarix Fakültəsi





Tezliklə hamımız öz mövzularımızla bağlı kitabxanalarda, arxivlərdə araşdırmalara başladıq. Tədricən bölgənin həqiqi tarixi ilə bağlı ilk qiymətli sənədlər, faktlar üzə çıxarıldı və işləndi. Azərbaycan Respublikasının Tarix Arxivində işlər başa çatdırıldıqdan sonra, tədqiqatları daha da dərinləşdirmək məqsədilə Gürcüstanın, Rusiyanın – Dağıstanın, Sankt-Peterburqun, Moskvanın Tarix arxivlərində və elmi kitabxanalarında işlər davam etdirildi. Bununla da bölgənin həqiqi tarixi yavaş-yavaş gözlərimiz önündə canlanmağa başladı.

1999-cu ildə Yaqub Mahmudovun redaktorluğu ilə bu sətirlərin müəllifinin "Şimal-Qərbi Azərbaycan: İlisu sultanlığı" adlı ilk monoqrafiyası işıq üzü gördü.

Monoqrafiyanın çap olunması ilə, Azərbaycanın şimal-qərbində 300 il mövcud olmuş İlisu sultanlığının tarixinin çox mühüm məqamları – İlisu sultanlığının xəritəsi, sultanlığı idarə etmiş sülalənin genealogiyası, Səfəvi Şahlarının və Osmanlı sultanlarının İlisu hakimlərini bu ərazilərə hakim təyin edilməsi barədəki fərmanları elmi dövriyyəyə buraxıldı. Mənbələrin əsasında İlisu sultanlığının yarandığı ərazinin vaxtilə Qafqaz Albaniyasının tərkib hissəsi olduğu sübut olundu. Səfəvi şahlarının İlisu hakimlərinin adına verdikləri fərmanlar bu ərazinin qədim dövrlərdə olduğu kimi, orta əsrlərdə və yeni dövrdə də Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiqləmiş oldu.

Yaqub Mahmudovun rəhbərliyi altında apardığımız araşdırmalar nəticəsində araşdırdığımız bölgənin qədim türk yurdu olduğunu sübut edən qiymətli toponimik materiallar ortaya çıxarıldı. "Hun beli", "Sakan", "Bucaq", "Qaradolaq", "Qıpçaq", "Tanqıt", "Oncalı", "Cəlayir", "Ulu körpü" kimi bölgədəki bir çox toponim və hidronimlərin – Qanıx çayı, Şəki rayonu ərazisindəki Baş Göynük kəndi, İlisu yaxınlığındakı Qonux dağı – M.Qaşqarlının oğuzların 22 qolundan biri, həm də ən "birincisi" kimi qeyd etdiyi "kınık" tayfaları ilə bağlılığı aşkarlandı [1, c.30-33].

Araşdırmalar sübut etdi ki, Cənubi Qafqazdan şimala və əksinə baş vermiş etnik axınlar artıq tarix elmində məlum olan Dərbənd və Dəryal keçidlərindən əlavə İlisu sultanlığını Böyük Qafqaz dağlarının şimal ətəkləri ilə birləşdirən"Hun beli" (Hun Keçidi) vasitəsilə də baş vermişdi.

Bunu da qeyd etmək lazımdır ki, hunlar Azərbaycana eramızın əvvəllərində gəlmişdilər və "quşanlar" adı ilə tanınırdılar [2, c.31]. Quşan hunlarının İlisuda məskunlaşdıqlarını burada bu günə qədər qorunub saxlanılan "Quş uşağı" və ya "Quşlar" nəsil adı sübut edir.

Bölgənin tarixinin qədim türk qatı ilə bağlı aşkarladığımız digər fakt isə saklarla bağlı idi. Şimal-Qərbi Azərbaycanda sak tayfaları adı ilə bağlı toponimlərin sırasına biri də bizim tərəfimizdən aşkarlanaraq daxil edildi. Belə ki, arxiv sənədlərinə əsasən, XIX əsrin sonlarına qədər müasir Qax rayonu ərazisində, Kürmük çayının sol sahilində "Sakan" adlı yaşayış məntəqəsi mövcud olmuşdur [3, v.10].

Yeri gəlmişkən, aparılan araşdırmalar zamanı Qaxın qədim adının da qıpçaq türk tayfası ilə bağlı olduğu məlum oldu. Belə ki, XIX əsr müəllifi İ.Lineviçin misal gətirdiyi rəvayətə görə, Qaxın qədim adı Torağay olmuşdur [4, s.15]. Mahmud Qaşqarlının əsərində bu sözün mənası qıpçaq dilində "dağlar arasında sığınacaq yer" kimi tərcümə olunmuşdur [5, c.373].

Bütün yuxarıda göstərilən toponimlərin və faktların tutuşdurulması nəticəsində türk tayfalarının Şimal-Qərbi Azərbaycan ərazisində hələ Qafqaz Albaniyası dövründən yaşamaları bir daha təsdiqləndi və onların bu regionda "gəlmə əhali" olmaları haqqındakı bəzi bədnam alimlərin iddialarının əsassız olduğu sübut olundu.

Şimal-Qərbi Azərbaycan həm də Rusiya imperiyasının işğalçılıq siyasətinə qarşı çevrilmiş ən qüdrətli mübarizə mərkəzlərindən biri olmuşdur. 1803-cü ildə qəddar çar generalı P.Sisianov tərəfindən bu ərazilər işğal olunarkən əhali işğalçılara qarşı şiddətli müqavimət göstərmişdi. Lakin yerli əhalinin müqavimətinə baxmayaraq, qüvvələr nisbətinin qeyri-bərabər olduğundan bu mübarizədə uduzan Car-Balakən camaatlığı və İlisu sultanlığının nümayəndələri Rusiya imperiyasının tabeliyini qəbul etməli oldu [6, s.686].

Yaqub Mahmudovun rəhbərliyi altında apardığımız araşdırmalar Şimal-Qərbi Azərbaycan hakimliklərinin, o cümlədən İlisu sultanlığının Rusiya imperiyasının müstəmləkəçilik siyasəti əleyhinə apardığı mübarizənin yeni səhifələrini açmağa imkan vermişdir. Məsələn, məlum olmuşdur ki, İlisulu Əli sultan ümumiyyətlə bu müqavilənin imzalanmasında şəxsən iştirak etməkdən imtina etmiş və öz nümayəndələrini göndərməklə kifayətlənmişdi. Sisianov Əli sultana itaətsizliyinə görə təhqir və hədə dolu məktublar göndərərək onun "qanı ilə çəkmələrini yuyacağını vəd edirdi" [6,c.685].

Tədqiqatlar nəticəsində aşkarladığımız faktlardan biri də bölgənin, daha doğrusu İlisu sultanlığının mübarizə tarixi ilə bağlı idi. Məlum oldu ki, Şimal-Qərbi Azərbaycanın əhalisi Rusiya imperiyasının müstəmləkəçilik siyasətinə qarşı çevrilmiş Şeyx Şamil hərəkatında fəal iştirak etmişdi.

Çarizmə qarşı mübarizəni əks etdirən növbəti faktlardan biri də 1844-cü il üsyanı ilə bağlı idi. Belə ki, işğala qarşı mübarizənin ən parlaq səhifələrindən birini də xalqımızın qəhrəman oğlu, sonuncu İlisu sultanı Daniyal bəy 1844-cü il üsyanı ilə yazdı [1,s.67]. Bu üsyan həm də türklərdən (muğallardan), avarlardan, saxurlardan və ingiloylardan ibarət olan bölgə əhalisinin yadelli işğalçılara qarşı mübarizədə yumruq kimi birləşməyə daim qadir olduğunu bir daha sübut etdi!

Bundan ciddi narahat olan Rusiya imperiyası çarizmin Azərbaycanda müstəmləkə siyasətinə qarşı mübarizədə sonuncu forpostu olan İlisu sultanlığını da parçalayaraq ləğv etdi [17, s.119].





Rusiya imperiyası Qafqazı işğal edərkən bölgədəki dövlət qurumlarının dövlətçilik ənənələrini məhv etmək məqsədilə sərhədləri yenidən dəyişərək, qardaş xalqlar arasına nifaq salmağa çalışırdı. İmperiyanın bu çirkin planı tədricən, "inzibati islahatlar" adı altında həyata keçirilirdi.

1840-cı il islahatlarına görə İlisu sultanlığının ərazisinin də daxil edildiyi Balakən qəzası Gürcüstan-İmeretiya quberniyasının tərkibinə qatıldı [7, v.22]. Bu, Azərbaycanın şimal-qərb torpaqlarının Azərbaycandan qoparılıb Gürcüstana birləşdirmək yolunda ilk addım oldu.

Digər tərəfdən, İlisu üsyanı məğlub edildəndən sonra, onun Böyük Qafqaz dağlarının şimal hissəsində yerləşən Saxur, Mikik, Söyüd, Xiyağ, Gelmes, Qurdul və Muslax kəndləri qoparılaraq 1839-cu ildə yaradılmış Samur dairəsinə verildi [8, s.434]. Sultanlığın dağətəyi və düzən ərazilərindən isə Car-Balakən, sonralar isə Zaqatala dairəsinin tərkibində İlisu pristavlığı yaradıldı [9, s.440].

Bu faktların arxiv sənədləri əsasında sübuta yetirilməsi bu gün şimaldan bizə əsassız ərazi iddialarını irəli sürən qüvvələrə tutarlı cavabdır.

Rusiya imperiyasının Cənubi Qafqazı işğal edərkən və sonrakı dövrdə əl atdığı ən çirkin əməllərdən biri də regionda müsəlman-xristian qarşıdurması yaratması idi. Məhz bu dövrdə Şimal-Qərbi Azərbaycanda türk-islam amilini sarsıtmaq məqsədi ilə "gürcü amili" ortaya atıldı. Guya Car-Balakən camaatlığının və İlisu sultanlığının ingiloy əhalisi əslində "xristian gürcü" idilər və yalnız I Şah Abbasın Kaxetiyaya 1616-cı il yürüşündən sonra onlar "zorla" müsəlmanlaşdırılmışdılar. Bu yalançı konsepsiyanı öz maraqları naminə qəbul edən çarizm 1803-cü il işğalından sonra Car-Balakən camaatlığının və İlisu sultanlığının ərazisində yaşayan ingiloyların "yenidən" xristianlaşdırılması kimi "missiyanı" öz üzərinə götürür. Əslində isə bu "xeyirxah missiyanın" arxasında daha dərin mətləblər dayanırdı: əhalini xristianlaşdıraraq burada, yəni Azərbaycanın şimal-qərbində möhkəmlənmək və gələcəkdə həmin torpaqları Gürcüstana birləşdirmək.

Rusiya işğalları zamanı işğalçıların tərəfinə keçən gürcü kilsəsinin canfəşanlığına baxmayaraq [12, s.5] XIX əsrin 20-ci illərində ingiloyların xristianlaşdırılması baş tutmadı. Missionerlərin Car-Balakəndən və İlisu sultanlığından Tiflisə xaç suyuna salmaq üçün apardıqları 14 nəfər geri dönəndən sonra yenidən islama qayıtdı. XIX əsrin 20-ci illərində İlisu sultanı Əhməd xanın, onun oğlu Alxaz bəyin ciddi müqaviməti və ingiloyların etirazları nəticəsində sultanlığın ərazisində xristianlığı zorla yaymaq cəhdləri baş tutmadı [11, s.427].

1844-cü ildə İlisu sultanlığı ləğv edildikdən sonra burada yenidən zorakı pravoslavlaşdırma siyasəti yeridilməyə başladı. Bu işdə uğur əldə etmək məqsədilə Qafqaz canişini M.S.Vorontsov 1851-ci ildə xristianlığı qəbul edən ingiloyları xəzinəyə ödənilən bütün vergilərdən azad etdi [13, s.899]. Bu tədbir tədricən öz

bəhrəsini verməyə başladı. Belə ki, artıq 1851-ci ildə bütövlükdə Car-Balakən dairəsində xristianlığı qəbul etmiş ingiloyların sayı 1200 nəfərə çatdı [13, s.899].

Çar hökuməti tezliklə Zaqatala dairəsinin ingiloy əhalisinin pravoslavlığı qəbul etməsini sürətləndirmək üçün kəndlərində pravoslav kilsələri tikməyə başladı [1,c.77]. 1855-ci ildə çar xəzinəsinin vəsaiti hesabına Qax kəndində Müqəddəs Georgi kilsəsi, Əlibəyli kəndində Müqəddəs Nina kilsəsi, Qorağanda Müqəddəs Məryəm Ana kilsəsinin tikintisinə başlanıldı [14, v.1,3].

İngiloyları pravoslavlığı qəbul etməyə şirnikləndirmək üçün bütün metod və vasitələrə əl atılırdı. Məsələn, Gürcüstan ekzarxı İsidor Car-Balakən dairəsindəki rus qoşunlarının komandanı qarşısında məsələ qaldırmışdı ki, kilsələrin inşasında iştirak etmiş bütün ingiloylar hərbi xidmətdən azad edilsinlər. Qax və Əlibəyli kəndlərində, hətta, "Kilsələrin inşası üzrə müvəqqəti komitələr" də yaradılmışdı [14, v.1,4].

Xristianlaşdırma siyasətinin əhəmiyyətini artırmaq üçün hətta Qafqaz canişini M.S.Vorontsov şəxsən öz xanımı ilə 1863-cü ildə Qaxa gəlmişdi [15, v.15]. O, burada ingiloyları pravoslavlaşdırmaq üçün xaç suyuna salmış, onlara qızıl medallar bağışlamış, imtiyazlar və güzəştlər vəd etmişdi. Təbii ki, imperiya canişinin ingiloylara bu cür diqqət göstərməsi onlara və yerli məmurlara böyük təsir göstərdi.

1892-1894-cü illərdə çar hökuməti daha ağır cinayətə əl atdı-regionun bütün etnoslarının ən qədim zamanlardan bəri birgə ibadət yeri olan Kürmük məbədinin yerində daha bir pravoslav kilsəsi inşa olundu [16, v.7].

Zaqatala dairəsinin ingiloy əhalisinin yarım əsrlik bir dövrü əhatə etmiş zorla pravoslavlaşdırılması siyasəti XIX əsrin əvvəllərinə qədər aralarında bir nəfər də olsun xristian olmayan, lakin sonradan xristianlara və müsəlmanlara parçalanmış ingiloylar arasında nifaq və düşmənçilik salmaqla müşayiət olunurdu. Tasmalı kəndinin keşişi Bakradzevin Gürcüstan ekzarxına yazdığı məruzədən bir parça bunu sübut edir: "Pravoslavlarla Məhəmmədilər (yəni müsəlmanlar – E.L.) arasında indi güclü bir düşmənçilik və qisasçılıq başlanıb; indi onların arasında nə qohumluq, nə qonşuluq, nə dostluq, nə tanışlıq, nə də ki, əvvəlki kimi ictimai münasibətlər var" [16, v.13].

Beləliklə, zor gücünə və böyük maddi imtiyazlar vasitəsi ilə ingiloyların bir hissəsinə pravoslavlığı qəbul etdirməklə Rusiya imperiyasının hakim dairələri Azərbaycanın şimal-qərb torpaqlarının yerli əhalisi arasında nifaq sala bildi, işğal olunmuş ərazilərdə öz mövqelərini möhkəmləndirdi.

Zaman keçdikcə, xüsusilə də Sovet dövründə Stalin rejiminin gücündən istifadə edən bəzi millətçi dairələr vaxtilə Şimal-Qərbi Azərbaycanda Rusiya imperiyasının zorla pravoslavlaşdırdığı yerli ingiloy əhalini "gürcü" kimi qələmə verdilər və gürcü kimi siyahıya aldıra bildilər [12, s.15]. Buna nail olduqdan sonra həmin qüvvələr tarixən Azərbaycan ərazisi olan Şimal-Qərb torpaqlarımızı və burada mövcud olan alban abidələrinin gürcülərə məxsus olduğunu sübut etməyə çalışırlar.





Beləliklə, yuxarıda qeyd etdiyimiz faktlar bir daha sübut edir ki, tariximizin məqsədli şəkildə saxtalaşdırılmasının qarşısının vaxtında alınması olduqca vacibdir. Bu baxımdan, akademik Y.Mahmudovun "itirilmiş torpaqlar" elmi istiqamətinin əsasını qoyması, onun zamanında verdiyi doğru qərarlarından olmaqla yanaşı, həm də tarix elmimizin qarşısındakı ən mühüm xidmətidir.

Son olaraq bunu qeyd etməyi özümə borc bilirəm ki, Yaqub müəllim mənim tarixçi kimi formalaşmağımda müstəsna rol oynamış şəxsdir. Yaqub Mahmudov məktəbinin davamçıları sırasında yer tutduğum üçün özümü çox şanslı sayır, qürur hissi duyuram.

Bu il Yaqub müəllimin 80 yaşı tamam olur! Bu gözəl yubiley vasitəsilə elmi rəhbərimi ürəkdən təbrik edir, möhkəm cansağlığı, yeni-yeni yaradıcılıq uğurlarını arzulayıram!

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Летифова Э.М. Северо-западный Азербайджан: Илисуйское султанство. Б., 1999
2. Велиев М.Г. (Бахарлы). Азербайджан. Б., 1921
3. ARDTA, Ф.579, с.1, с.в.1
4. Линевич И. Бывшее Елисуйское султанство. - ССКГ, т.VII. Тифлис, 1873
5. Kaşkarlı Mahmut. Divanü lüğat-it-türk, bölüm 1. Ankara, 1985
6. Всеподданнейший рапорт кн. Цицианова от 12-го марта 1803 года. АКАК, т.IX, д.3. Тифлис, 1883
7. RDTA, f.1844, iş 28
8. Проект положения об управлении Дагестанской областью. АКАК, т. XII. Тифлис, 1904
9. Проект положения об управлении Закталъского округа. АКАК, т.XII, Тифлис, 1904
10. Письмо ген.Ермолова к экзарху Грузии Ионе от 30-го сентября 1822 года. АКАК, т.IX, ч.I. Тифлис,1874
11. Письмо экзарха Грузии Ионы к ген.-л. Вельяминову от 12 августа 1822 года. АКАК, т.VI, ч.I. Тифлис, 1874
12. Mahmudov Y.M., Lətifova E.M., Məmmədova A.Ə. XIX əsrdə Şimal-Qərbi Azərbaycanda pravoslavlaşdırma siyasəti və pravoslav kilsələrin tikilməsi tarixindən. – AMEA Tarix institutunun Elmi əsərləri, cild 20, Bakı, 2007

13. Отчёт кн. М.С.Воронцова за 1849-1851 гг. Вероисповедания. АКАК, т.Х. Тифлис, 1885
14. ARDTA, f.579, İngiloy (Zaqatala keşişliyi), iş 5
15. ARDTA, f.579, İngiloy (Zaqatala keşişliyi), iş 3
16. ARDTA, f.579, İngiloy (Zaqatala keşişliyi), iş 1
17. Летифова Э.М. Илисуйское султанство. Баку, 2010

**Изучение истории Илисуйского султанства в контексте научного направления «Потерянные территории» академика Ягуба Махмудова**
**РЕЗЮМЕ**

В научное направление «Потерянные территории» академика Ягуба Махмудова входит исследование истории Гарабага, Нахчывана, северо-западных территорий Азербайджана и т.д. Как видно, данное направление ученого отличается своей многогранностью.

Наша статья посвящена изучению истории Илисуйского султанства в контексте одного из вышеуказанных направлений школы академика – исследования истории северо-западных территорий Азербайджана.

В статье прослеживаются этапы изучения истории Илисуйского султанства, которое было начато в 90-е годы прошлого века под руководством выдающегося ученого.

**Study of the History of Ilisu Sultanate in the Context of the Scientific Direction «Lost Territories» by Academician Yagub Makhmudov**
**ABSTRACT**

The research area "Lost Territories" by Academician Yagub Makhmudov includes the study of the history of Garabagh, Nakhchivan, the north-western territories of Azerbaijan, and etc. As you can see, this direction of the scientist is distinguished by its versatility.

Our article is devoted to the study of the history of the Ilisu Sultanate in the context of one of the above directions of the academician's school - the study of the history of the north-western territories of Azerbaijan.

The article traces the stages of studying of the history of Ilisu Sultanate, which was begun in the 90s of the last century under the guidance of an outstanding scientist.